# Yaddaş poeziyası

*Musa Xanbabazadə*
*filoloq-ədəbiyyatşünas,*
*AJB-nin üzvü*

**Poeziya (ümumən ədəbiyyat) saflaşdırır, sağlamlaşdırır, paklaşdırır hiss və duyğuları. Uzaqlaşdırır insanları (insanlığı) bədxahlıqlardan, naqisliklərdən, eybəcərlik və çirkinliklərdən. Korroziya, dağılma və pasatmadan qoruyur əxlaq və mənəviyyatları. Parladır-cilalayır ağıl və düşüncələri.**

Poeziya susqunluq və ətalətin, məzlumluq və mütiliyin kölə qanını damcı-damcı çəkir-çıxarır qeyrət damarlarımızdan. Bizləri zülməzülmkara, qəsbə-qəsbkara, zora-zorakılığa davamlı-sürəkli oyanış və çarpışa, savaş və döyüşlərə səfərbər edir.

Poeziya direniş və devrimə, etiraz və protestoya çağırır bizləri yad-ögey dəyərlərə, gəlmə əxlaq və davranış normalarına.

Poeziya bərpa edir öldürülən və unutdurulan, manqurtlaşdırılan və ögeyləşdirilən yaddaşları. Yol açır bizlərə və aparır bizləri əcdad tarixinə, əsil-nəsəb ilkinliyinə. Ayna tutur milli kimliyimizə, hansı soyun-kökün üstdə boy atdığımıza.

Bu baxımdan çox ibrətamiz və xarakterikdir istiqlal savaşçısı, Xalq şairi SABİR RÜSTƏMXANLInın vətəndaş cəsarətli, milli qeyrətli, qan yaddaşlı poeziyası.

Çoxdan, lap çoxdan tanışam Sabir Rüstəmxanlının poeziyası ilə-XX yüzilin 60-cı illərindən, lap dəqiq desək, 1963-dən, universitetin 3 saylı yataqxanasında keçirilən şeir gecələrindən, qızğın ədəbi-bədii diskusiyalardan!

O çağdan sehrində-ovsunundayam, cazibə və cəzbindəyəm bu poeziyanın.

O çağdan axıb ruhuma, hopub içimə bu poeziya özünün ideya-bədii mükəmməlliyi, güclü bədii-publisist ovqatı, milli-mənəvi dəyərlərə həssas münasibəti, əxlaqi-estetik təlqinetmələri, ritm-intonasiya-forma özəllikləri ilə..

Fəxrlənir, iftixarlanıram ki, mən 53 ildir yoldayam, qol-boyunam, əl-ələyəm Sabir Rüstəmxanlı poeziyası ilə.

53 ildir oynadır-tərpədir yerindən ruhumu, ovudur könlümü, arxasınca aparır ömür-günümü Sabir Rüstəmxanlı poeziyası.

53 ildir zülmət gecələrdə, ziq-zaqlı yollarda, böhranlı-tərəddüdlü anlarda mənə (oxuculara) durna çıraqlarıdır, mənəviyyat zirvələridir Sabir Rüstəmxanlı poeziyası.

53 ildir böyük vətəndaş yanğısı ilə ağıl və düşüncələrə, hiss və duyğulara vətənçilik-türkçülük ideyaları toxumu əkir, import fikir və ideyaların milli ruha güclə-zorla qaynağının inkarına dayanır Sabir Rüstəmxanlı poeziyası.

Bəli, 53 ildir Sabir Rüstəmxanlı poeziyasına üz tuturam. Oxuyuram təkrar-təkrar bu poeziyanın şedevrlərini (”VƏTƏN”, ”SAĞ OL, ANA DİLİM”, ”BİR QARIŞ VƏTƏN TORPAĞI”, ”SARI GƏLİN”...) birinci dəfə oxuyurammış kimi. Bir daha əmin-yəmin oluram ki, Sabir Rüstəmxanlı poeziyası (ümumən yaradıcılığı) yurd-vətən məcnunludur, el-oba vurğunludur, od-ocaq ovsunlu-əfsunludur. Və hara gedirəmsə (Moskvaya, Kiyevə, Riqaya, Sankt-Peterburqa, Krıma, İrana...) bu poeziyanın şah misra və beytləri, bənd və strofalrı ürəyimdə bulaq kimi çağlayır, dodaqlarımda çiçəkləyir. Bir sözlə,,,,..dilimin Leylasıdır” (B.Vahabzadə) Sabir Rüstəmxanlı poeziyası:

**... Cavad xanın qətl yeridi.**
**Sabirin ”Fəxriyyə” şeridi.**
**... Hadinin şeir bazarıdı.**
**Füzulinin dağılmış məzarıdı.**
**... Torpağı ot deyil, kişi göyərdən**
**Vətən...Vətən.**
**... Söz qaladım, ocağımdan köz düşdü,**
**Əl uzatdım köməyimdən iz düşdü.**
**Hansı eldə soyumuzdan söz düşdü-**
**Dost dilində sorağından doymadım.**

Yurda-ocağa məhəbbət dolu bu şeir örnəkləri qərib-qürbət ölkələrdə məni vətənsizləşməyə qoymur, içimi, ruhumu vətən havasına kökləyir, qurbətlərdə olduğumu mənə unutdurur. Çünki bu misralar (və digər nümunələr) səsləndikcə elə bilirəm Azərbaycan mənim yanımdadır. Elə bilirəm Qoşqar, Savalan mənimlə qürbətlərdə qoşa addımlayır. Elə bilirəm oralarda oxuyan bülbüllər də doğma dilimdə oxuyur, doğma dilimdə şərqilər ötürlər. Doğmalaşdırır, munisləşdirir Sabir Rüstəmxanlı poeziyası qərib-qürbətləri mənə öz halal məmləkətim, öz cah-cəlal səltənətim qədər. Çünki doğma sözlərdə qürbət əriyir, qürbət VƏTƏNləşir. Sabir Rüstəmxanlı demişkən:

**... Harda bircə kəlmə sözüm yaşayır,**
**Oranı halalca yurdum sanmışam.**

Bu 53 ildə anlamışam ki, məmləkətin bu başı ilə (Bakı ilə) o başını (Təbrizi) BÜTÖVLÜYə, BİRLİYə, YEKDİLLİYə haraylayır Sabir Rüstəmxanlı poeziyası və bu poeziyanın bir sıra klassik nümunələrində (”TƏBRİZ XİYABANI”, ”CƏNUBLU ŞAİR YAŞIDIM YAZIR”, ”GÜNƏBAXAN ZƏMİSİNDƏ”, ”YURDUN BAYRAĞINA”...) artıq bu haray-çağırışın əkssədaları eşidilir. Misralardan ucalan ümidinam səsləri belə bir həqiqəti qulaqlarıma (qulaqlarımıza) təkrarlayır ki, vaxt-zaman gələr dilimizdə qabar bağlayan ”cənubi-şimali” sözləri (damğaları) biryolluq aradan qalxar və üçrəngli ay-ulduzlu bayrağımız Təbrizdə, Ərdəbildə, Urmidə, Marağada.. məğrur-məğrur dalğalnacaq.

**... Mənim ürəyimtək Təbriz başında**
**Niyə yellənmirsən, bayrağım, niyə?!**
**... Yol ver yurdun bayrağına,**
**Haradan qopubsa, ora dönsün.**
**Özgə elində gözü yox,**
**Öz elində görünsün!**
**Yelpikləsin məzarını şəhidlərin.**

Anlamışam ki, 200 yaşlı həsrətə-hicrana, bir bədəni yağlı tikə kimi ikiyə bölənlərə və onlrın bugünkü varislərinə imzalı poetik fərmandır Sabir Rüstəmxanlı poeziyası.

Anlamışam ki, məmləkətin bir-birindən zor-güc cida salınan oğul və qızlarını Araz boyu sıralanan sərhəd dirəklərini kökündən qoparmağa, tikanlı məftilləri dişlə-dırnaqla qırıb-doğramağa körükləyir Sabir Rüstəmxanlı poeziyası!

Və Sabir Rüstəmxanlı poeziyasının elə örnəkləri var ki, bu örnəklər (”GERİ DÖNMƏLİYİK”, ”VAXT YETİŞƏR”, ”HƏR KƏS GÜNƏŞİ SEVSƏ”...) bir həqiqəti də mənə (bizlərə) xatırladır ki, həm sərhəd dirəkləri, həm də tikanlı məftillər RUH-MƏNƏVİYYAT eyniliyinə yasaq- qadağada gücsüz-acizdir. Sərhədlər və məftillər QAN və YADDAŞ qohumluğunu unutdurmaqda-manqurtlaşdırmqda gərəksizyetərsizdir. RUHa, YADDAŞa sərhəd gərəkməz:

**... Yollarım qırılmaz, baharım solmaz,**
**Araz qırağında batmayaq yasa.**
**Sərhəd çəkilməklə millət ayrılmaz,**
**Ruhunda ayrılıq yaranmayıbsa.**

Bu 53 ildə anlamışam ki, manqurtlaşdırılan və özgələşdirilən yaddaşlrın bərpaçısı-qurucusudur Sabir Rüstəmxanlı poeziyası. Bu poeziya həm yaddaşlara antiinsani cəbri-cəzanı gerçəkləşdirənləri nişanlayır, həm də onların hansı məqsədlərlə bu əxlaqi-mənəvi terrora imza atdıqlarını aşkarlayır. Öldürülən və unutdurulan, manqurtlaşdırılan və özgələşdirilən yaddaşların əks-sədasıdır Sabir Rustəmxanlının ”SALAM, GƏNCƏ QAPISI”, ”NARIN QALA”, ”QAN YADDAŞI”, ”TARİXİ YARADANLAR”, ”YANDIRAR MƏNİ”... poetik inciləri. Bu əsərlərdən çıxan nəticələri, təxminən, belə ümumiləşdirmək, belə xülasə etmək mümkündür: özlərinin maraqlarına rəğmən zaman-zaman qəsd ediblər yaddaşımıza imperiya başçıları; unutdurublar bizlərə tariximizi, milli mənliyimizi; ayırıblar bizləri milli kökümüzdən, adət-ənənələrimizdən; doldurublar qafamıza özlərinin yabançı-yağmaçı, süni-yapma tarixini və gerçəkliklərini; əridiblər bizləri öz içlərində; itaətkara, qula, bir sözlə, özlərinə təhlükəsiz əl tulasına çeviriblər bizləri və s . Ağıdır-elegiyadır unutdurulan və öldürülən yaddaşlara Sabir Rüstəmxanlının ”SÖNMÜŞ OCAĞIN AĞISI” poeması. Açır-tökür bu poemada sair unutdurulan və öldürülən yaddaşların xislətlərini, törətdikləri faciə və fəlakətlərini, tarixin səhifələrinə yazdıqları müsibət və dəhşətlərini, özlərinin kökünə-soyuna xəyanətlərini, biganəlik və laqeydliklərini, bir sözlə, millətinin-xalqının başına ”əngəl-kələf”liyini.

Pərakəndədirlər. Hərc-mərcdirlər. Özündənrazıdırlar. Təşəxxüslu və təkəbbürlüdürlər. Düşmən dəyirmanına su tökərlər. Düşmən təndirini qalayarlar, kündəsini yayar, bişirər və və düşürərlər. Bir-birinə dirsək göstərərlər unutdurulan və öldürülən yaddaşlar:

**Yenə parçalanmışdı kim bilir neçin, niyə,**
**Düşmənin kündəsini öz əlimiz yayırdı.**
**Xanlar xoruzlanırdı yenə dimdik-dimdiyə,**
**Hər dərədə bir tülkü özünü bəy sayırdı.**

Birlik- vəhdət və həmrəylikdən çox-çox uzaqdırlar. Dilbirlik və sözübütövlük hissiduyğusundan məhrumdurlar. Vətən sevgisi və yurd həsrətinə biganə-laqeyddirlər unutdurulan və öldürülən yaddaşlar:



**Onda yurdun üstünü aldı təzə bir tufan,**
**Gəncənin göylərində ildırımlar üz-üzə.**
**Ölkələr yenə-yenə haqqımızı unudan**
**Gördü dilbir deyilik, yeridi üstümüzə.**

Kef-əyləncə məclisləri qurarlar. Baba mülkünü əlli yerə bölərlər. Qardaş harayına oyanmazlar. Qardaşa dəyən zərbələrdən qəhqəhə çəkərlər. ”Məndən ötdü, qardaşıma dəydi” deyibən qürurlanarlar unutdurulan və öldürülən yaddaşlar:

**Hərəmiz bir dərədə, eyş-işrət, kef-əyləncə.**
**Bir babanın mülkünü əlli yerə bölmüşük.**
**Birimiz döyüləndə arxayın yatıb gecə,**
**Bilmədik bir bədəndə hamımız döyülmüşük.**

Uluların ruhuna saygısızlıq göstərərlər. Bir bayraq altında qərarlaşmazlar. Hər kəs öz məhəlləsini, öz kəndini qoruyar və öz iqamətgahından öz bayrağını asar unutdurulan və öldürülən yaddaşlar:

**Məzarına od düşüb, yəqin, Şah İsmayılın.**
**Yəqin, Uzun Həsənin rahatlığı pozulmuş.**
**Bir bayrağın altında birləşən yüz mahalın,**
**Hərəsinin üstündən öz parçası asılmış.**

Torpaqlarda sürünərlər. Zirvələrdə görünməzlər Bərk ayaqda savaşdan qaçarlar. Yurdu hissəbəhissə yağı-yağmaçılara satarlar unutdurulan və öldürülən yaddaşlar:

**Torpaqda sürünən çox, zirvələrdə uçan tək,**
**Boy göstərib ucalan neçə nifaqa düşdü.**
**Biz biri-birimizin arxasından qaçantək**
**Təbriz İranın oldu, Kərkük İraqa düşdü.**

Millətinə-xalqına arxa çevirərlər. Öz doğma analarına tüpürərlər. Özgə analara ”can” deyərlər. Ata əmanətinə-ata ocağına xəyanət edərlər. Sığındığı yad ölkədən rütbələnərlər unutdurulan və öldürülən yaddaşlar.

**Heç özün bilirsənmi adın nə, millətin nə?**
**General olanacan kimlərdən süd əmmisən?**
**Çoxdan xain çıxmısan ata əmanətinə,**
**Yurdunu sata-sata rütbələr dilənmisən.**

Yalnız öz xeyrini-faydasını düşünərlər. Namusdan keçər, cibindən keçməzlər. Yadın qənşərində quyruq bulayarlar. Doğmalarına barmaq silkələyərlər. Savaşlarda özlərini güdaza verməzlər. Fəqət Vətənin əydirərlər vüqarını. Soldurarlr baharını unutdurulan və öldürülən yaddaşlar:

**Dən-dən olub üyündük zəmanənin çarxında,**
**Hərə öz kisəsini, cibini güdən oldu.**
**Biz bir-birimizə əyilməkdən qorxanda**
**Hamımızın yerinə əyilən vətən oldu.**

Özləri öz köklərini, qollarını baltalayarlargəlmələrə ocaq qalayarlar. Qardaşlar üstünə it qısqırdarlar. Kafərləri-gavurları qardaş mənziləsində görərlər unutdurulan və öldürülən yaddaşlar:

**Özümüz balta çaldıq kökümüzə o ki var,**
**Qolumuzu budayıb ocaq qaladıq yada.**
**Qardaşı olmayanlar özgəni qardaş tutar,**
**Qardaşı ola-ola yetim qaldıq dünyada.**

Vətənsiz ömür sürərlər. Qərib-qürbətlərdə çürüyərlər. Qəbrə qoyulmazlar. Divarlar dibində basdırılarlar. Gəlib-gedənlərə tapdaq olarlar unutdurulan və öldürülən yaddaşlar:

**Sən vətənsiz yaşadın, tərəfini kim çəkir?**
**Bu torpağa yem ol ki, gözlərini dağlasın.**
**Bir qalanın dibində səni basdıraralar ki,**
**Sizin, bizim nəsillər gorunu ayaqlasın.**

Məmləkəti ”bizlər”ə, ”sizlər”ə bölərlər. Ürəklərə nifaq toxumu səpərlər. Ötəri-köçəri etiqadlara tapınarlar. Qulağı kar, gözləri kor yaşarlar unutdurulan və öldürülən yaddaşlar:

**Nə qədər davam etsə, sizlər, bizlər söhbəti**
**Arazdan daha qəddar ayırar məmləkəti.**
**Hərə bir etiqada, hərə bir sözə bağlı,**
**Hər ötəri arzuya qul olduq gözübağlı.**

Sabir Rüstəmxanlının poetik dünyasından o da məlumdur ki, ən qorxulu və ən amansız ölkə başçılarına faydalı-sərfəlidir yadlaşdırılan-ögeyləşdirilən yaddaşlar, yəni vətənə və xalqa, onun bu gününə, sabahına laqeyd və biganələr, ”mənə nə var”, ”təki qarnım tox olsun” psixologiyası ilə yaşayanlar-ruhu-mənəviyyatı ölü, fəqət qarnı- mədəsi diri ölü yaddaşlar. Güclü olur bu cür yaddaş sahiblərində cahillik, fanatizm, elmsizlik, məlumatsızlıq, susqunluq... Təbii ki, bu keyfiyyətləri özlərində ehtiva edən ölü yaddaşlar nə ölkələrin başçılarına, nə də məmurlara problem-zad yaşatmırlar, necə deyərlər, onlar hökumətə tikansız balıqdır: göz yumurlar ölkəni ağzına alan talanara. İnanırlar məmurların üyütdüyü yalanlara. Allah qəzəbi bilirlər bahalşma və bahalığı. Baş qoşmurlr ölkədə aparılan siyasətə. Susurlar məmurların haqsızlıq və ədalətsizliyinə. Təhlükəsiz-ziyansızdırlr məmurlara. Yaşıl işıqdırlar əziciliyə və sümürçülüyə. İtaətkar və başıaşağıdırlar. Lal-kardırlar. Məzlum və mütidirlər. Nökər və lakey xislətlidirlər. Oğru və əliəyridirlər. Əqidə və məsləkcə sürüşkəndirlər. Yaddırlar ata-babalarının yaratdıqlarına- sökürlər-dağıdırlar, uçururlar yadigarlarını: muzeyləri, məscidləri, bürc və qalaları...

Əksinə, ölü yaddaşlarla eyni dövlətdə, eyni torpaqda və eyni göyün altında ”yaşamaq-yaratmaq” məmurlara çox-çox asan, çox-çox xoşdur. Mane olmurlar bir-birlərinə- ölü yaddaşlar qarın-mədə savaşlarında, məmurlar isə məmləkəti çapıb-talamaq iştahasında.

Qarşılaşdırır Sabir Rüstəmxanlı bir sıra şeirlərində (”NƏYƏ GƏRƏK BELƏ QARDAŞ”, ”QARA DYRNA”, ”BAKI GÖYRƏÇİNLƏRİ”...) oxucuları vətənə-millətə yararsız belə ölü yaddaşlarla.

Həcmcə kiçikdir. Lakin məna-məzmunca əhatəli-tutumludur. İdeyaca içtimai-fəlsəfidir ”NƏYƏ GƏRƏK BELƏ QARDAŞ” şeri. Şair iki ölü yaddaş təqdim edir oxuculara. Biri əli külüngü qədim binaları dağıdıb daş-kərpicini evlərinə daşıyır. Əli qələmli alim isə xalqın tarixini yanlış yazır. Xalqa və keçmişinə ləkə yaxır. Kökümüzü gah ərəbə, gah da farsa yozur. Hər ikisi eyni nöqtədə birləşir: xalqa xəyanətdə, xalqı çapıb-talamaqda. Biri xəyanəti külüngü, digəri isə qələmi ilə gerçəkləşdirir. Şair hər ikisinə sonsuz qəzəbli, sonsuz nifrətlidir. Cilovlamır nifrətinin-qəzəbinin Qıratlarını. Səyirdir üstlərinə cəsarətlə, qətiyyətlə. Sözlərin və söz birləşmələrinin (”alimciyəz”, ”tarixbaz”, ”nakişi”, ”ləkə”, ”özümüzü içimizdən yeyən qurd”, ”xoşqeyrətli filanzadə”, ”nökər ruhlu haramzadə”) zəhmi-zabitəsi titrədir, lərzəyə salır hər ikisini. Misraların qılınc kəsəri tökür-biçir həm əli külüngünü, həm də psevdo-alimi:

(ardı 15-ci səhifədə)

(əvvəli 13-cü səhifədə)

# Yaddaş poeziyası

**Özümüzü içimizdən yeyən qurdlar-**
**Alimciyəz, tarixbazlar.**
**Öz kökündən çoxdan qopub.**
**Kökdən yazan oyunbazlar.**

Qorxuludur-təhlükəlidir hər iki ölü yaddaş. Qənimdir hər ikisi xalqa, xalqın maddi mədəniyyətinə və xalqın mənəvi səltənətinə. Sökür-dağıdır hər ikisi ululların yaratdıqlarını, ulularn ucaltdıqlarını- biri dağıdır toyuğunun hini üçün, digəri alimlik şöhrəti üçün.

Sabir Rüstəmxanlı vətəndaş yanğılı digər poetik haraynamələrində ("YATMIŞ VİCDANLAR", "QOPSUN MİLLƏTDƏN", "ÇƏPƏR", "DÜNYA GÖZƏLDİ ANCAQ",..) bir-bir sadalayır ölü yaddaşların törtədikləri cinayət və qəbahətlərini, haqsevərlər üzərində reallaşdırdıqları antihümanist cəza və işgəncələrini, vətənin taleyinə qara xətlə yazdıqları fəlakət və müsibətlərini. Şairin məharəti-ustalığı ondadır ki, o, bütün bu ürəkağrıdanları geniş epik lövhələrdə deyil, ya eyhamlarda, ya simvol-rəmzlərdə, ya da içtimai kəsərliçəkili metaforik deyimlərdə bədii həqiqətə çevirir. Şair özlərinin xislətinə-xarakterinə uyar mənfi çaralı epitet və metaforalarda damğalayır-ştamplayır bu var ikən yoxları, bu diri ikən ölmüşləri: "ölən-çayanlar", "gülüstan vətəni cəhənnəmə döndərənlər", "didərgin ruhumuzu hər gün talayanlar", "şərə sevinib zülmə ulayanlar", "kandar yalayanlar", "yetimlərin mülkündən ocaq qalayanar" və s. Şerin son misralarında şair harayı, şair narahtlığı acı təəssüf və peşmançılıqla əvəzlənir. Şair təəssüflənir ki, söz, kəlam, haray, qışqırıq "bu yatmış vicdanları silkələmir". Qılınc kimi doğrayıban tikələmir. Cəhənnəm zəbanəsinə dığırladıb itələmir:

**...Hansı haray, qışqırıq, göz yaşı edər kömək**
**Hansı söz silkələyir bu yatmış vicdanlrı!?**

53 ildir milli yaddaş, milli özünüdərk, milli şüur, milli ruh, milli saxlanc və milli-mənəvi güzgüdür Sabir Rüstəmxanlı poeziyası.

53 ildir bu güzgü-poeziyada kökləri yerin dərin qatlarına şaxələnən qollu-budaqlı nəhəng dəmirağacı kimi necə də məğruranə ucalır Sabir Rüstəmxanlı!

53 ildir ucalır Sabir Rüstəmxanlı qan yaddaşına, soykökünə, yurd-əcdad tarixinə, dədə-baba ocağına dərindən-dərin sədaqəti, möhkəmdən-möhkəm bağlılığı ilə!

53 ildir ucalır Sabir Rüstəmxanlı özünü xalqın qan yaddaşının oyanması və dirçəlməsi, durulaşması və aydınlaşması uğrunda təmənnasız yandırıb-yaxmağı ilə.

53 ildir Sabir Rüstəmxanlı özünü alovlarda-odlarda yandıra-yandıra bizlərə, xüsusən manqurtlaşdırılan və özgələşdirilən ölü yaddaşlara ünvanlayır nurani-pirani öyüd-nəsihətlərini, məsləhət-vəsiyyətlərini: Ey yurddaş, ey dindaş! Qayıt kökünə, ilkinliyinə. Qayıt şah babana, sultan dədənə. Qayıt özünə-sözünə. Qayıt elinə-dilinə. Qayıt ocağına-dağına. Nankor çıxma ata çörəyinə, ana südünə. Üz çevirmə doğma səslərdən, ilahi nəfəslərdən. Onda sən sürünməzsən. Ayaqlarda əzilməzsən. Atarsan köləlik, susqunluq daşını. Ağalar qapısında axıtmazsan göz yaşını. Onda sən diri olarsan. Bəşəri olarsan. Canlı olarsan. Şanlı olarsan. Əyilməz və basılmaz olarsan. Özünə və yurduna sahib çıxarsan!

**Bu dünyada hər kəsin öz kökü var,**
**Kökdən qopan Allahı da danacaq.**
**Tək başına qızıl olsun daş-divar**
**Özgə ocaq özgəsinə yanacaq.**
**Ömür borcdu, bu yükünü unutma,**
**Min budaq ol, öz kökünü unutma.**